# Dövlət başçılarının şərəfinə



Avqustun 16-da Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak edən dövlət başçılarının şərəfinə ziyafət verilmişdir.

**AzərTAc.**

# Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur

Avqustun 16-da Qəbələdəki Prezident iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.

Görüşdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısına dəvətə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi. Nursultan Nazarbayev Azərbaycanın əldə etdiyi nailiyyətləri qeyd edərək, ölkəmizin beynəlxalq aləmdə nüfuz qazandığını və qardaş Qazaxıstanın Azərbaycanın uğurlarına sevindiyini vurğuladı. Nursultan Nazarbayev ölkəmizə budəfəki gəlişi zamanı Azərbaycanda böyük inkişafın şahidi olduğunu bildirdi.

Prezident İlham Əliyev Qazaxıstanın müxtəlif sahələrdə uğurlar qazandığını qeyd etdi. Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir çox sahələrdə inkişaf etdiyini vurğulayaraq, enerji-nəqliyyat potensialının hər iki ölkənin daha da inkişaf etməsində rolundan danışdı.

Görüşdə Qəbələdə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısının ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Qazaxıstanın iqtisadi, o cümlədən nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığının, Azərbaycanın Qazaxıstana məhsul ixracının genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıldı.

**AzərTAc.**

# Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana səfəri başa çatmışdır

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III sammitində iştirak edən Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana səfəri başa çatmışdır.

Türkiyə Prezidenti Abdullah Gülü Qəbələ Beynəlxalq Hava Limanında iqtisadi inkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər yola saldılar.

**AzərTAc.**

# Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycana səfərə gəlmişdir

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak etmək üçün Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev avqustun 15-də Azərbaycan Respublikasına səfərə gəlmişdir.

Qəbələ Beynəlxalq Hava Limanında Prezident Almazbek Atambayevi Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər qarşıladılar.

**AzərTAc.**

# Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana səfəri başa çatmışdır

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana səfəri başa çatmışdır.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi Qəbələ Beynəlxalq Hava Limanından Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər yola saldılar.

**AzərTAc.**

# Qırğızıstan Prezidenti Almazbek Atambayevin Azərbaycana səfəri başa çatmışdır

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III toplantısında iştirak edən Qırğızıstan Prezidenti Almazbek Atambayevin Azərbaycana səfəri başa çatmışdır.

Qırğızıstan Prezidenti Almazbek Atambayevi Qəbələ Beynəlxalq Hava Limanından Azərbaycanın dövlət və hökumət nümayəndələri yola saldılar.

**AzərTAc.**

# Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan xarici işlər nazirləri Misirdəki vəziyyətlə bağlı birgə Bəyanat qəbul etmişlər

Türkdilli Dövlətlərin Xarici İşlər Nazirləri Şurasının avqustun 15-də Qəbələdə keçirilən iclasında Misirdəki vəziyyətlə bağlı Bəyanat qəbul olunmuşdur.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, Bəyanatda deyilir: "Biz Misirdə davam edən nümayişlərə cavab olaraq gücdən istifadə nəticəsində insanların həyatını itirməsi və yaralanmasından təəssüflənirik. Hesab edirik ki, mülki şəxslərin həlak olması qəbuledilməzdir. Öldürülən şəxslərin ailələrinə başsağlığı veririk, eyni zamanda, yaralanan şəxslərin tam və tezliklə sağalmasını arzu edirik. Biz ölkədə barışın həyata keçirilməsinə zəruri ehtiyacın olduğunu vurğulayır və təhlükəsizlik, demokratiya və sabitliyin bərpa olunmasına çağırırıq".

# Qəbələdə türkdilli dövlətlər arasında əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur

Avqustun 16-da Qəbələ şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında ölkələr arasında əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur.

AzərTAc xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı bildirmişdir.

O, toplantıda Universitetlər Birliyinin yaradılması, idman, mədəniyyət, nəqliyyat və gömrük sahələrində əməkdaşlıq məsələlərinin müzakirə edildiyini demişdir. Eyni zamanda, gömrük sahəsində əməkdaşlıq üçün yükdaşımaların təşviqi də planlaşdırılmışdır.

Toplantıda, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də diqqət mərkəzində olmuşdur.

Qurumun baş katibi qeyd etmişdir ki, türkdilli dövlətlərin xarici işlər nazirlərinin növbəti görüşünün Nyu-Yorkda keçirilməsi planlaşdırılır.

*Məsul katib N. R. Atakişiyev.*

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Məsul növbətçi M. Ə. Rəhimov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydədən keçmişdir.
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2142.